# Şahin Fazil - 75



**Hörmətli Şahin müəllim!**

Sizi - tanınmış şair, mütərcim və alim ziyalımızı 75 yaşınız münasibətilə təbrik edirik.

Bədii, elmi yaradıcılığınıza və mütərcimlik fəaliyyətinizə erkən yaşınızdan başlamısınız. 1958-ci ildə Qubada «Qızıl Quba» qəzetində dərc edilmiş «Qızbənövşə» adlı ilk mətbu şerinizdən sonra ali təhsil almağa böyük meyl göstərmiş, məqsədinizə nail olmuş və 1959-cu ildə Azərbaycan Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə qəbul olunmusunuz. Ali məktəbin beşinci kurs tələbəsi olarkən fars dili mütərcimi kimi Əfqanıstan krallığına ezam olunmuş, bir il orada işlədikdən sonra müvəqqəti olaraq Bakıya dönərək dövlət imtahanlarını vermiş və yenidən Əfqanıstana qayıdıb oranın Çin sərhədinə yaxın Səripol adlı ucqar bir şəhərində daha iki il işləmisiniz. 1966-cı ildə bu xarici ölkəyə ilk səfərinizdən qayıdaraq üç il əvvəl təhsil aldığınız fakültədə dekan müavini vəzifəsində işləmiş, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun Aspiranturasına daxil olmuş, lakin SSRİ-nin İqtisadi Həmkarlıq Dövlət Komitəsinin göndərişi ilə yenidən Əfqanıstana göndərilmiş, ikinci dəfə həmin xarici ölkədə mütərcimlik fəaliyyətinizə davam etmisiniz. 1970-ci ildə bu ezamiyyətiniz müddətini başa vurmuş, 1970-1973-cü illərdə Elmlər Akademiyasının Tarix İnstitutunda əyani aspirant olmuş, aspirantura müddəti bitdikdən sonra bir il elmi işçi vəzifəsində çalışmış, 1974-cü ildə öz məşhur kitabını, XVI əsrin ortalarında fars dilində qələmə almış azərbaycanlı tarixçi Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» («Tarixlərin ən yaxşısı») salnaməsi əsasında yazdığınız «Azərbaycan XV-XVI əsrlərdə (Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsəri Azərbaycan tarixinin mənbəyi kimi)» adlanan dissertasiyanızı müvəffəqiyyətlə müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almısınız. 1970-1978-ci illər arasında respublikamızda və xarici ölkələrin elmi nəşrlərində tariximizin Orta əsrlərinə dair məqalələr çap etdirmisiniz. Bununla yanaşı, müxtəlif jurnal və qəzetlərdə əfqan yazıçı və şairlərinin şeir, hekayə və publisistik yazılarını müntəzəm olaraq dərc etdirmisiniz. 1978-1982-ci illərdə Əfqanıstan hökumətinin dəvətilə yenidən Əfqanıstana qayıtmış, əvvəlcə həmin ölkənin müxtəlif nazirliklərində, sonra isə Nazirlər Şurasında mütərcim olmuş, fəaliyyətiniz nəzərə alınaraq Əfqanıstanın üç Dövlət Medalı və SSRİ-nin Fəxri fərmanları ilə təltif olunmusunuz. Əlamətdardır ki, siz bu üçüncü ezamiyyətiniz dövründə Əfqanıstanda bir sıra Azərbaycan şair və yazıçılarının şeir və hekayələrini fars dilinə çevirərək Kabul şəhərinin müxtəlif qəzet və jurnallarında çap etdirmisiniz.

Siz 1983-1985-ci illərdə Elmlər Akademiyasının Tarix İnstitutunda üç il baş elmi işçi vəzifəsində işlədikdən sonra dördüncü dəfə Əfqanıstana ezam olunmuş, orada bu xarici ölkənin Baş naziri və SSRİ-nin Baş müşaviri yanında mütərcim işləmisiniz. Siz uzunmüddətli dörd ezamiyyətinizə son qoyaraq vətənə qayıtdıqdan sonra 1996-cı ildə «Azərbaycan və Osmanlı imperiyası XV-XVI əsrlərdə» adlı doktorluq dissertasiyanızı müdafiə etmiş, 2004-cü ildə professor elmi adına layiq görülmüsünüz. Elmlər Akademiyasında işləməklə yanaşı, respublikamızın müxtəlif dövlət universitetlərində (Bakı, Lənkəran, Sumqayıt) mühazirələr oxumuş, bir neçə Elmi Şuranın üzvü olmuş, dissertasiya işlərinə rəhbərlik etmiş, ölkədə və xaricdə yaşayan dissertantların elmi rəhbəri, həmçinin opponenti olmusunuz.

Siz XX əsrin birinci mətbu «Divan» kitabını yazmış və çap etdirmisiniz (1996). İndiyədək daha üç «Divan»ınız işıq üzü görmüşdür (2005, 2008 və 2014-cü illərdə). Siz XIX əsrdən sonra təzkirəçilik ənənəsi unudulmuş ölkəmizdə ilk təzkirə kitabı yazmış və onu «Təzkireyi-Şahin» adı ilə çap etdirmisiniz (2005). 135 yaşlı «Məcməüş-şüəra» («Şairlər məclisi») adlı məclisin sədrisiniz və hazırda şairlər tərəfindən əruz vəzninin daha da inkişaf etdirilməsində xidmətiniz böyükdür. «Quba tarixi» adlı böyük kitabınızı yazmış, hazırda «Şəki tarixi» adlı kitab üzərində işləyirsiniz. Bu yaxınlarda «Quba tarixi»nin ikinci nəşri üzərindəki işinizi bitirmiş və onu istehsalata təhvil vermisiniz. Böyük Azərbaycan tarixçisi İsgəndər bəy Münşinin (1560-1634) «Tarixe-aləmaraye-Abbasi» («Dünyanı bəzəyən Abbasın tarixi») adlı iki böyük hissədən ibarət bütün dünyada məşhur olan kitabını fars dilindən çevirmiş və çap etdirmisiniz. Şeirləriniz Əfqanıstan, İran, Türkiyə, İraq və Yaponiyada çap olunmuşdur. 2009-cu ildə Yaponiyanın iki şəhərində (Sinday və Tokio) «XX əsr Azərbaycan milli tarixşünaslığı: tarixi təcrübə və müasir vəziyyət» adlı məruzə ilə çıxış etmisiniz. «Azərbaycan haykuları» (2011) adlı kitabınızdan seçmələr Tokioda dərc olunmuşdur. Barənizdə dissertasiya işi (Qiymət Məhərrəmlinin «Şahin Fazil divanı və klassik ədəbi ənənələr») yazılmış və müdafiə olunmuşdur.

Siz 31 elmi, bədii və tərcümə kitabının müəllifisiniz. Hazırda sizin tərcümənizlə XVI əsrin digər tarixçisi Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsərinin birinci cildi üzərindəki işiniz başa çatmışdır. Ondan çox mahnı mətnlərinin müəllifisiniz. Siz Azərbaycan Yazıçılar Birliyi üzrə Respublika Prezidentinin təqaüdçüsü (2012-2013-cü illərdə) olmusunuz.

Hörmətli Şahin müəllim!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**